# Köçünüz mübarək, zəngilanlılar!

***Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Sentyabrın 10- da Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan şəhərciyi"ndən yola salınan 13 ailədən ibarət növbəti köç karvanı Ağalı kəndinə çatıb. İyirmi doqquz ildən sonra Vətənə qayıdan zəngilanlıları Ağalı kəndində Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev qarşılayıb. Onlara Ağalı kəndində yaradılan şərait barədə məlumat verilib.***





Bu rəsmi xəbərdən sonra, öncə onu qeyd edək ki, Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk qədəmləridir. "Ağıllı kənd" konsepsiyasına uyğun qurulan Ağalı kəndinə ilk dəfə iyulun 19-da 41 ailə (201 nəfər) köçürüləndə çoxları xəyalın reallığa çevrilməsinə – qeyri-adi arzunun həyata keçirilməsinə möcüzə kimi baxırdılar. İkinci mərhələdə 25 ailə (125 nəfər) köçürüləndə isə insanlarda bu köçün davamlı olacağına böyük inam yarandı. Çünki onlar öyrəndilər ki, Ağalıda məskunlaşan sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunublar.

Xatırladaq ki, Qarabağa qayıdış 30 illik həsrətin sonudur. Bu həsrətin sona çatması üçün Ali Baş Komandanın rəhbərliyi ilə dövlətimiz, xalqımız uzun mübarizə yolu keçdi, minlərlə şəhid verdi. Qazilərimiz hələ də bərpa - reabilatisya müalicəsi alırlar. Ötən 30 ildə doğma yurdlarından məcburi köçkün düşmüş milyonlarla həmvətənimiz uzun müddət əzabəziyyətli həyat yaşadılar. Hətta məcburi köçkünlər arasında torpaq həsrəti ilə dünyasını dəyişən insanlar da oldu. Bu gün onların ruhu şaddır. Özləri olmasa da ruhları Vətən torpağında dolaşır.

Qeyd edək ki, Böyük qayıdış beynəlxalq hüququn, ədalətin, BMT qətnamələrinin Azərbaycan tərəfindən təmin olunması deməkdir. Vətən müharibəsində möhtəşəm Qələbədən sonra doğma yurda qayıdışın təmin olunması mühüm, eyni zamanda, tarixi prosesdir. Qələbədən sonra ilk iş işğaldan azad edilən ərazilərin minalardan təmizlənməsinə başlamaq oldu. Hazırda da düşmən tərəfindən minalanmış ərazilər qarış - qarış təmizlənir, təhlükəsiz şərait yaradılması istiqamətində tədbirlər görülür. İnsanların rahat yaşaması, iş şəraitinin yaradılması, Füzulidə, Zəngilanda, Laçında hava limanlarının, Zəfər yolu kimi meqalayihələrin icra edilməsi, yeni su elektrik stansiyalarının, yarımstansiyaların istifadəyə verilməsi, genişmiqyaslı tikinti-quruculuq işlərinin sürətlə aparılması ölkəmizin həm sülh niyyətini, həm də potensialını göstərir.

Dövlət başçımızın rəhbərliyi və tapşırığı ilə işğaldan azad edilən bölgələrdə yenidənqurma layihələri ən müasir texnoloji əsaslarla, "ağıllı kənd" konsepsiyaları çərçivəsində həyata keçirilir. Zəngilan rayonunun Birinci, İkinci və Üçüncü Ağalı kəndlərini əhatə edən "ağıllı kənd" layihəsi smart quruculuğun mükəmməl nümunəsidir. Qeyd etməliyik ki, layihəyə uyğun olaraq bərpa işlərində ən müasir şəhərsalma standartları tətbiq olunur.

Xatırladaq ki, işğaldan azad edilmiş rayonların çoxunun şəhərsalma planı hazırlanıb və bu istiqamətdə bərpa - quruculuq işləri sürətlə aparılır. İnanırıq ki, yaxın zamanlarda Ağalı kəndinə qayıdanlar kimi, digər rayonların da sakinləri uzun həsrətdən sonra öz doğma yurdlarında yaşamağa başlayacaq, normal həyatlarına davam edəcəklər.

Füzuli Beynəlxalq Hava Limanından sonra Zəngilanda da aeroportun qısa müddətdə inşası işğaldan azad olunmuş ərazilərdə bərpa prosesinin sürətlə getdiyini bir daha təsdiqləyir. Hər iki limanın inşası həm siyasi, həm iqtisadi, həm də tarixi əhəmiyyət daşıyır. Azərbaycan azad olunmuş ərazilərə qayıtdığı kimi, Qarabağın və Şərqi Zəngəzurun hava məkanında da artıq sərbəst və təhlükəsiz şəkildə uçuşlar həyata keçirir. Qeyd edək ki, hava limanlarının inşası bu ərazilərdə nəqliyyat infrastrukturunun kompleks həllinin tərkib hissəsidir. Füzuli və Zəngilan hava limanları beynəlxalq statuslu hava limanlarıdır və burada həm sərnişindaşıma, həm də yükdaşımaların həyata keçirilməsi gələcəkdə bölgənin iqtisadi baxımdan dirçəlməsi üçün geniş imkanlar açacaq. Çünki Qarabağın və Şərqi Zəngəzurun böyük iqtisadi potensialının reallaşması, burada istehsal ediləcək məhsulların daxili bazara, o cümlədən xarici bazara ixrac edilməsi baxımından hava limanları mühüm əhəmiyyət kəsb edir. Onu da qeyd edək ki, hazırda Kəlbəcər–Laçın bölgəsində də unikal hava limanı inşa olunur. Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi təbii ki, həm bu bölgədə yaşayan insanların rifahını təmin edəcək, həm də bölgənin turizm imkanlarını artıracaq. Nəticə etibarilə Qarabağ geniş nəqliyyat qovşağına çevriləcək.

Bu gün Ağalı kəndində 79 ailə üçün inşa edilən evlər yalnız yaşayış məskəni deyil, uzun illər arzulanan yurda-daşına, torpağına, çiçəyinə, gülünə həsrət qalan zəngilanlıların vüsal günüdür. Hələ bu, başlanğıcdır, köç karvanı yola çıxıb, davam edəcək. Köçünüz mübarək, Ağalı kəndi! Yurda qayıdışınıza eşq olsun, zəngilanlılar!

***Aydın HÜSEYNOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 14 sentyabr.- S.11.